"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

**PRES RELİZ**

# Prezident İlham Əliyev "Azərinşaatservis" MMC-yə məxsus Şpal zavodla tanış oldu.

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2007/08/23*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Qaradağ rayonunun Ələt qəsəbəsində "Azərinşaatservis" MMC-yə məxsus Şpal zavodla tanış oldu.

2006-cı ilin may ayının ortalarından istehsalata başlayan şpal zavod haqqında Prezidentə ətraflı məlumat verildi. Zavodun fəaliyyəti və istehsal prosesi ilə maraqlanan Prezident İlham Əliyevə məlumat verildi ki, ümumi dəyəri 4 820 000 ABŞ dolları olan zavod Xəzər dənizi hövzəsində müasir standartlara cavab verən yeganə və Qafqazada ilk belə müəssisədir. Bu vaxta qədər republikamızın dəmir-beton şpallara olan ehtiyacı idxal yolu ilə həll edilirdisə, zavodun istehsala başlaması ilə indi vaxt itkisinə və əlavə xərclərə yol vermədən bu şpalları əldə etmək mümkün olmuşdur.

Prezidentə məlumat verildi ki, şpal zavodun ümumi ərazisi 62 240 $m^2$, istehsal ərazisi isə 2 904 $m^2$-dir. Zavod tamamilə Almanyanın Walter-Beton GmbH şirkətindən idxal edilmiş avadanlıqlarla təchiz edilib. 100-ə yaxın insanın işlədiyi bu zavod ildə 240 000 şpal istehsal etmək gücündədir. Bu isə il ərzində 75-80 km yeni dəmiryolu tikintisi üçün şpal ehtiyacının ödənilməsi deməkdir. Zavodda istehsal prosesi inkişaf etmiş ölkələrdə ən geniş yayılmış Vaslov sisteminə uyğun olaraq həyata keçirilir. Məhsul istehsalında əsasən yerli xammaldan istifadə olunur. Yalnız xüsusi gərginliyə malik olan və şpalın daxilində elastiklik yaradan metal məmulat İtaliyadan gətirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müəssisə ilə tanışlıqdan sonra istehsalın həcmini artırmaqla bağlı tövsiyələrini də verdi.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 2082087, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**